

**Bu inam nədən doğur, haradan qaynaqlanırdı?! Dəyərli oxucularımız onları maraqlandıran bu suala aşağıda dolğun cavab alacaqlar. Hesab edirik ki, bundan sonra onların da bir ziyalı, mədəniyyət xadimi kimi Məleykə xanıma hüsn-rəğbəti artacaqdır...**

# Doğrulan ümidlər

## Yeddi il əvvəl şöbə müdiri təyin edilərkən onun etimadı doğruldacağına inananlar çox idi...

**Son 10 ildə Şamaxı Rayon Mədəniyyət və Turizm Şöbəsində 4 dəfə kadr dəyişikliyi aparılıb. Etiraf etmək lazımdır ki, şöbə müdiri vəzifəsinə təyinatla bağlı Məleykə xanım Kamilovaya etimad göstərilməsi tamamilə özünü doğrultmuş, nəhayət, bu sahədəki boşluq aradan qaldırılmışdır.**

Ötən illər ərzində gerçəkləşdirilən layihələri, mədəniyyətimizin təbliği və inkişafı, milli-mədəni dəyərlərimizin qorunması istiqamətində həyata keçirilən tədbirləri təhlil edərkən bir daha əmin olursan ki, Məleykə xanımın şöbə müdirliyinə gətirilməsi nəinki Şamaxı, eləcə də respublikanın digər bölgələrində aparılan ən uğurlu təyinatlardandır.

Məhz bundan sonra ölkəmizin bu dilbər guşəsinin siması büsbütün dəyişmiş, nə qədər abadlaşdırma, yenidənqurma və bərpa işləri aparılmış, mədəni-maarif müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində müvafiq addımlar atılmışdır.

Görülən işlər haqqında bəhs edəcəyik. Hələlik isə Məleykə xanım Kamilovanın ömür kitabını vərəqləməyi məqsədəuyğun bilirik.

Kamilova (İsrafilova) Məleykə Məzahir qızı 1957-ci il avqustun 7-də Şamaxı şəhərində anadan olub. Şəhər 5 saylı orta məktəbi bitirib. M.Ə.Sabir adına Şamaxı Pedaqoji Texnikumunun və M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsinin məzunudur.

Müxtəlif vəzifələrdə çalışıb. 2004-cü ilin may ayından Şamaxı Rayon Mədəniyyət Şöbəsinin, 2006-cı ildən Şamaxı Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiridir.

Ailəlidir. 4 oğlu var. Onların hamısı- Mirməhəmməd də, Miribrahim də, Mirkazım da musiqiyə meyllidir. Mirkamilə gəlincə, bu gənc öz istedadı ilə respublikamızda kifayət qədər populyardır.

Görünür, bütün bunlar qandan gələn bir ənənə ilə bağlıdır. Məleykə xanımın söylədiyinə görə, ailədə 7 nəfər uşaq olublar. İndi yalnız şamaxılıların deyil, həm də bütün xalqımızın sevib hörmət etdiyi Respublikanın xalq artisti Mələkxanım Əyyubova da bu gözəl ocaqda pərvəriş tapan övladlardan olub.

Digər övladlardan Əliyaqub İsrafilov haqqında da ayrıca danışmalıyıq. Mədəniyyətimizin inkişafında və təbliğində az zəhməti olmayan Əliyaqub müəllim neçə il Şamaxı Rayon Mədəniyyət Şöbəsinə rəhbərlik edib.





Məleykə xanım rayon mədəniyyət və turizm şöbəsinin müdiri olduğu 7 ilə yaxın bir müddətdə çox iş görüb, neçə-neçə maraqlı layihənin gerçəkləşdirilməsində, rəngarəng tədbirlərin həyata keçirilməsində özünəməxsus rol oynayıb.

Tabeliyində olanların qayğısına qalıb. İstedadların aşkara çıxarılması, milli-mədəni dəyərlərimizin mühafizəsi, kitabxanaların yeni ədəbiyyatla zənginləşdirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi məqsədilə müvafiq strukturlarla əlaqə yaradıb.

Onların hamısı haqqında söhbət açmaq və onu bir məqaləyə sığışdırmaq imkan xaricindədir. Odur ki, 2010-cu ildə həyata keçirilən mədəni tədbirlərin bir qismini diqqətinizə çatdırmaqla kifayətlənirik.

- Dənizkənarı parkda və İçəri şəhərdə keçirilən Novruz şənliklərində Respublikanın əməkdar mədəniyyət işçisi Rasim Ələsgərovun rəhbərliyi ilə "Şirvan" milli musiqi alətləri ansamblı iştirak etmişdir.
- İyun ayının 3-də məşhur tarzən Hacı Məmmədovun 90 illiyi rayon mədəniyyət evində böyük təntənə ilə qeyd olunmuşdur. Tədbirdə xalq artistləri Ağasəlim Abdullayev, Mələkxanım Əyyubova, Fəxrəddin Dadaşov, əməkdar artist Zabit Nəbizadə və digər görkəmli sənətkarlar iştirak etmişlər.
- Yunanıstan Respublikasının Xanti bələdiyyəsi tərəfindən "IV Bienalle 2008-2009" Dünya Uşaq rəsm sərgi müsabiqəsi keçirilmişdir. Sərgi-müsabiqədə 142 ölkədən 141234 rəsm işi nümayiş etdirilmişdir.

Müsabiqədə Şamaxı Uşaq İncəsənət məktəbinin şagirdləri müvəffəqiyyətlə çıxış etmiş, məktəbin 3 şagirdinin rəsm işi 1-ci dərəcəli diploma və medala, bir şagirdin rəsm işi isə 3-cü dərəcəli diploma layiq görülmüşdür.

- May ayının 14-də Şamaxı Uşaq İncəsənət məktəbinin kollektivi Rəşid Behbudov adına mahnı teatrında böyük konsert proqramı ilə çıxış etmişdir.
- İyulun 24-dən 31-dək Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə Şamaxıda rəssamların yaradıcılıq emalatxanaları keçirilmişdir.
- Dekabrın 10-dan 15-dək Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə keçirilən xalq çalğı alətləri üzrə II Respublika müsabiqəsində Uşaq İncəsənət məktəbinin şagirdləri fərqləndiyinə görə tərifnaməyə layiq görülmüşlər.
- Kürdəmir şəhərində keçirilən "İstedad sorağında" adlı Respublika müsabiqəsinin yekun tədbirində Uşaq İncəsənət məktəbinin şagirdi Mirzəyev Vəliş Mirzə oğlu müvəffəqiyyətlə çıxış etmişdir.



- Heydər Əliyev Mərkəzində kompüter kursu, rəsm studiyası, xalq sənətkarlığı, fotostudiya və s. yaradılmışdır.
- Uşaq İncəsənət məktəbinin 50 illik yubileyi təntənəli surətdə qeyd olunmuşdur.

Şamaxı Rayon Mədəniyyət və Turizm Şöbəsinin qazandığı uğurlar ilk növbədə Məleykə xanım Kamilovanın adı ilə bağlıdır. Belə ki, şöbə müdiri kimi



fəaliyyətə başladığı ilk gündən o, vəzifəsinə məsuliyyətlə yanaşmış, tabeliyindəki əməkdaşları bir ansambl şəklinə gətirərək onlara qayğı və diqqətini əsirgəməmiş, hər kəsi bacarığına görə dəyərləndirmiş, mövcud imkanlardan maksimum və yaradıcı şəkildə istifadə etmişdir.

Nəticə göz qabağındadır. Kollektiv mehriban bir ailəni xatırladır. Şöbədə "bu sənin, o mənim işimdir" deyən yoxdur. Hamı bir nəfər kimi eyni məqsəd üçün çalışır. Əgər bir iş planlaşdırılıbsa, bir tədbir müəyyənləşdirilibsə, o mütləq yüksək səviyyədə icra olunmalıdır.



Məleykə xanımın xoşbəxtliyi ondadır ki, qədim tarixə malik Şamaxıda mədəniyyətimizin təbliği və inkişafı kimi şərəfli missiyanı həyata keçirərkən buyurmağa, istinad etməyə, arxalanmağa, ümidli olmağa bir-birindən fəal əməkdaşların əhatəsindədir.

**Bu sırada şöbənin aparıcı məsləhətçisi, Heydər Əliyev mərkəzinin direktoru vəzifəsinin icraçısı Rəfael Tağızadənin, rayon mərkəzləşdirilmiş kitabxana sisteminin direktoru Ərəstun Xələfovun, "Şirvan" instrumental ansamblının bədii rəhbəri Şirzad Fətəliyevin, rayon mədəniyyət evinin bədii rəhbəri, Respublikanın əməkdar mədəniyyət işçisi Rasim Ələsgərovun, Respublika Aşıqlar Birliyinin Şirvan bölgəsi üzrə rəhbəri aşıq Ağamurad İsrafilovun, Sabir muzeyinin direktoru, əməkdar mədəniyyət işçisi Rəqsanə Xəlilzadənin, muğam qrupunun üzvü Mirələm Mirələmovun, müğənni Vəfa Rəsulovanın və başqalarının adlarını məmnunluqla çəkməliyik...**

**Yaşar HİDAYƏTOĞLU**